# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №13 (83) • 09.04.2012


AzadliqRadiosu.az®


**Sulutəpə-Xocasən yolu ətrafındakı evlər yenidən sökülür** səh.4

**Mülkigeyimlilərin axtarışında** səh.6

**Что Израиль поставил Азербайджану?** səh.7

**Ramzan Kadırov nefti "Rosneft"dən alıb Azərbaycana təklif edir** səh.10

**Zahid Oruc da tenderləri pislədi** səh.11

**Bank əmanətlərini qaytaracaq komissiya hansı qaydada işləyəcək?** səh.14


## Maraqlı videolar

- Gəncədə atışma yerindən görüntülər
- Evindən zorla çıxarılan sakinin monoloqu
- Moskva bazarında azı 17 nəfərin həlak olduğu yanğın

**www.AzadliqRadiosu.az**

# Gəncədə MTN əməkdaşını öldürən silahlılar kimlərdir?



***Nazirlik terror planlaşdıran 17 nəfəri ifşa etdiyini bildirir*** səh.9

# İctimai Palata Bakıda mitinq keçirdi

İctimai Palatanın aprelin 8-də şəhərin kənarında keçirilməsi nəzərdə tutulan aksiyasına insanların gəlişinə əngəllər olsa da, şəhərin mərkəzi hissələrindən həmin əraziyə avtobusların və taksilərin gəlişinə qadağalar qoyulsa da, aksiya baş tutub. Tanınmış ziyalı Rüstəm İbrahimbəyov də mitinqə qatılanlar arasında olub.

səh.2

Şantaj





Xədicə İsmayılova:
**«Evimə kameranı hökumət orqanları yerləşdirib»** səh.3

**Sürücülərə cərimələr artırıldı** səh.5

**Avropalı komissar Azərbaycanla bağlı narahatlıqdan danışdı** səh.8

Əkrəm Əylisli:
**"Qorxuram yeni kitabıma görə məni yandırsınlar"** səh.13

# İctimai Palata Bakıda mitinq keçirdi




**İctimai Palata aprelin 8-də Bakıda mitinq keçirib. Aksiya Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılıb və şəhərin mərkəzindən xeyli aralıda – 20-ci sahədə sürücülük məktəbinin meydançasında baş tutub. Hakimiyyət orqanları ilə razılaşdırılmaya baxmayaraq, şəhərin mərkəzi hissələrindən həmin əraziyə avtobusların və taksilərin gəlişinə qadağalar qoyulub, aksiyaya gələn insanlara maneələr olub. Bir nəfər aksiyaçı polis tərəfindən döyüldüyünü deyib.**

Lakin mitinq baş tutub və təşkilatçılar deyib ki, aksiyaya 10 mindən çox adam qatılıb. Polis əməkdaşları aksiya iştirakçılarını metal detektorlarla yoxlayıb meydana buraxıblar.

**MƏTBUAT ŞURASI MONİTORİNQ APARIB**

Mətbuat Şurasının Monitorinq Qrupu da 20-ci sahədəki sürücülük məktəbinin həyətinə gəlib. Onlar AzadlıqRadiosuna deyiblər ki, qrup jurnalistlərə maneə yaradılıb-yaradılmamasını araşdırmaqla məşğuldur.

**"HƏVƏSKAR OPERATORLAR", YOXSA...**

AzadlıqRadiosunun əməkdaşı Nüşabə Fətullayeva xəbər verir ki, aksiyada



mətbuat işçisi olmayan, eləcə də müxalifət partiyalarına mənsub olmayan şəxslər çəkilişlər aparıblar. Onlar təxminən 8-10 nəfərdir. Müxbirimiz onlardan çəkilişi hara üçün apardıqlarını soruşub. Həmin şəxslər özlərini təqdim etməyiblər. "Özümüz üçün, arxiv üçün çəkirik" deməklə kifayətləniblər.

*Səbayel Rayon Polis İdarəsinin rəis müavini Kamal Vəlişov isə deyib ki, həmin şəxslər həvəskar operatorlardır:* "Aksiya icazəli olduğu üçün onlar çəkiliş apara bilərlər".

*AXCP sədrinin müavini Həsən Kərimov deyib ki, çəkiliş aparanlar xüsusi xidmət orqanlarının işçiləri ola bilər:* "Onlar aksiyaya gələnləri çəkib kimliklərini müəyyənləşdirəcəklər. Sonra da işlədikləri idarə-müəssisələrə, şirkətlərə göndərib bu vətəndaşlara təzyiqlər edə, işdən çıxarmaqla hədələyə bilərlər".

Sürücülük məktəbinin yaxınlığında tikilməkdə olan hündürmərtəbəli binadan bir neçə nəfər çəkiliş aparır. Jurnalistlər də oradan çəkiliş aparmaq istədikdə polis onlara rədd cavabı verib. Heç bir izahat verməyib.

**MÜBARİZ QURBANLI VƏ SİYAVUŞ NOVRUZOV MİTİNQİ MÜŞAHİDƏ EDİBLƏR**

Hadisə yerində olan müxbirimiz xəbər verir ki, hakim Yeni Azərbaycan Partiyasının üzvləri, deputatlar Mübariz Qurbanlı ilə Siyavuş Novruzov mitinqi aralıdan müşahidə ediblər.

Mitinqi aparan İbrahim İbrahimli deyib ki, aksiya iştirakçılarının hamısı gələ bilmədiyindən mitinqin başlamasını bir qədər yubadırlar.

**ƏLİ KƏRİMLİ: "İNDİ DÜNYA TİRANLARDAN XİLAS OLUR"**

*AXCP sədri Əli Kərimli son illər hakimiyyətin azad sözə, jurnalistlərə təzyiqindən, onları öldürtməsindən, həbs etdirməsindən danışıb. Eyni zamanda hakimiyyətin kütləvi aksiyalara imkan vermədiyini deyib:* «Hakimiyyətin məqsədi budur ki, özünün korrupsiya siyasətindən diqqəti yayındırsın. Hakimiyyət özünün müxalifətini yaradıb cəmiyyətə təqdim etmək istədi. Mən burdan bəyan edirəm ki, alınmadı bu siyasət, İlham Əliyev!»

*Əli Kərimli daha sonra deyib:* «İndi dünya tiranlardan xilas olur. Azərbaycan da bu prosesdən kənarda qala bilməz. Azərbaycan xalqı azadlığa layiq xalqdır!».

*Əli Kərimli hakimiyyətin Qarabağ siyasətinə də toxunub. O deyib ki, Azərbaycan hakimiyyəti Qarabağı qaytarmaq üçün heç bir addım atmır:* «Minlərlə azərbaycanlı Qarabağ uğrunda şəhid olub, onların ruhu narahatdır!».

**RÜSTƏM İBRAHİMBƏYOV VƏ ELDAR NAMAZOV MİTİNQDƏ**



Tanınmış ziyalı Rüstəm İbrahimbəyov və Ziyalılar Forumunun digər təmsilçisi Eldar Namazov da mitinqdə iştirak ediblər.

**İSA QƏMBƏR: "ÖLKƏDƏ DƏYİŞİKLİKLƏRİN ƏSL VAXTIDIR"**

*Aksiyada çıxış edən Müsavat Partiyasının başqanı İsa Qəmbər deyib ki, Azərbaycanda Xeyirlə Şərin mübarizəsi gedir. Onun fikrincə, Azərbaycanda xəyanətkar qüvvələr hakimiyyətə gətirilir. O belə bir qüvvə kimi də Əliyevlərin adını çəkib.* İsa Qəmbər: «Azərbaycan korrupsioner, dərəbəy qüvvələr tərəfindən idarə edilir. Bu qüvvələr arasında ziddiyyətlər getdikcə dərinləşəcək və İlham Əliyev bu ziddiyyəti çözmək iqtidarında deyil».

İsa Qəmbər deyib ki, ölkədə dəyişikliklərin əsl vaxtıdır. Onun çıxışının sonunda yenidən «istefa» şüarları səslənib. İsa Qəmbər qeyd etdi ki, istefa şüarı o vaxt reallaşacaq ki, sıralarımız 100 minlərlə hesablanacaq...

Sonda mitinqin qətnaməsi səslənib və bildirilib ki, növbəti mitinq aprelin 22-də keçirilsin.

***Şahnaz Bəylərqızı***

# Xədicə İsmayılova: «Evimə kameranı hökumət orqanları yerləşdirib»



**«Alternativ yolla apardığımız araşdırma nəticəsində özümə qarşı şantajın məhz dövlət idarələrinin iştirakı ilə, xüsusi xidmət orqanları tərəfindən aparıldığı qənaətindəyəm».**

Jurnalist Xədicə İsmayılova aprelin 4-də keçirdiyi mətbuat konfransında belə deyib. O, bildirib ki, şəxsi həyatına müdaxilə ilə bağlı aparılan istintaqın gedişindən narazıdır:

«Martın 9-da Daxili İşlər Nazirliyinə və Baş Prokurorluğa müraciət etmişəm, təəssüf ki, bir neçə gün ərzində heç bir cavab almamışam. Sonrakı istintaq da göstərir ki, hüquq-mühafizə orqanları vaxtında işə başlasaydılar bu videonun yayılmasının qarşısı alına bilərdi. Lakin reaksiya olmadığından olduqca əhəmiyyətli olan vaxt itirilib».

Xədicə İsmayılova bir qrup jurnalistlə birlikdə apardıqları araşdırmanın nəticələrini də açıqlayıb. Onun dediyinə görə, araşdırma nəticəsində bəlli olub ki, qaldığı mənzilə videokamera ötən ilin iyul ayından quraşdırılıb və mənzilə çəkilən əlavə telefon xətti vasitəsilə mənzil «online» izlənilib.

Mənzildə digər əlavə naqil xətlərin çəkildiyi də aşkarlanıb. Müstəqil araşdırma qrupu mənzilə əlavə telefon xətti çəkən ATS əməkdaşı ilə də danışıb və həmin şəxs bu işi rəhbərlik tərəfindən verilən tapşırıq əsasında həyata keçirdiyini bildirib. Xədicə İsmayılovanın dediyinə görə, onların üzə çıxardıqları faktlar, həmçinin ATS əməkdaşının açıqlamaları onların israrlarına baxmayaraq, protokola salınmayıb.

«Prokurorluq heç bir araşdırma aparmadan martın 15-də cinayət işi başlayıb. Belə təcili cinayət işinin başlanması Azərbaycan reallığı üçün qeyri-adi hadisədir. Səbəbi yəqin hamıya bəllidir, göstəriş gəlib ki, təcili tədbir görmək lazımdır». Bunu isə jurnalistin vəkili Adil İsmayılov deyib. Vəkil də rəsmi qurumları fəaliyyətsizlikdə ittiham edib.

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi mətbuat xidmətinin rəhbəri Müşfiq Əmirov bildirir ki, bu ittihamları ilk dəfədir eşidir və yalnız araşdırma apardıqdan sonra bununla bağlı məlumat verəcəklər.

Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov da istintaqın ləng getməsi barədə iradları rədd edir. Eldar Sultanov AzadlıqRadiosuna bildirib ki, aprelin 3-də Bakı Şəhər Prokurorluğunun rəhbərliyi Xədicə İsmayılovanı qəbul edib. İstintaqın gedişi barədə ona ətraflı məlumat verilib. Eldar Sultanov həmçinin bildirir ki, X.İsmayılovanın ifadəsində göstərdiyi xüsusatlar hərtərəfli və obyektiv araşdırılmaqla istintaq davam edir.

Martın əvvəlində naməlum şəxslər Xədicə İsmayılovanı şantaj etmək istəyiblər. Martın 7-də jurnalistin ev ünvanına gələn poçtda ondan susması tələb olunub, əks halda, intim şəkillərini yaymaqla hədələyiblər.

Əvvəlcə hüquq-mühafizə orqanları buna reaksiya verməyiblər. Yalnız jurnalistin intim həyatına aid video internetdə yayımlandıqdan sonra reaksiya verilib.

Jurnalistin Baş Prokurorluq və Daxili İşlər Nazirliyinə etdiyi müraciətdən sonra martın 15-də Baş Prokurorluq onun şəxsi həyatına müdaxilə ilə bağlı cinayət işi qaldırıb. CM-in 156-cı maddəsi (şəxsi həyatın toxunulmazlığı hüququnun pozulması) üzrə qaldırılan cinayət işinin istintaqı Bakı Şəhər Prokurorluğuna həvalə edilib.

***Ülkər Akifqızı***




“250 plyus” gerçəkliyə fərqli baxışdır. AzadliqRadiosu.az saytında gülüş doğuran və düşündürən videosüjetlərə siz də baxın.

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



**Azərbaycan Rusiyadan uzaqlaşır?**



**5 ildə cəmi 1200 tələbə xaricdə oxumağa göndərilib**

**«Azərbaycana 50 milyon tondan artıq neft hasil etmək lazım deyil»**



**Ziyalılarla redaktorlar nədən danışıblar?**



**Patriarxın bahalı saatı başına bəla olub**

# Sulutəpə-Xocasən yolu ətrafındakı evlər yenidən sökülür



**Aprelin 6-da Azərbaycan Dövlət Neft Şirkətinin əməkdaşları Xocasən - Sulutəpə yolu ətrafında yerləşən evlərin bəzilərini sökməyə başlayıblar. Sakinlərin sözlərinə görə, bir neçə saat ərzində 15-ə yaxın evin hasarı dağıdılıb. Hadisə zamanı xəsarət alanlar da olub. Evlərinin qanunsuz və məhkəmə qərarı olmadan söküldüyünü deyən sakinlər yaşadıqları ərazidəki yolu bağlamağa cəhd ediblər. Polis sakinləri avtomobil yolundan uzaqlaşdırıb. Bir neçə gün öncə Sulutəpə yaşayış massivində evlərin sökülməsinə başlanılıb. Söküntü 4-cü neft mədəni ərazisində aparılıb.**

Aprelin 4-də jurnalistlərə açıqlama verən ARDNŞ prezidenti Rövnəq Abdullayev deyib ki, neftli ərazilərdə Azərbaycan Dövlət Neft Şirkətinin (ARDNŞ) neft-qaz əməliyyatlarına mane olan bütün qanunsuz tikililər söküləcək. Onun sözlərinə görə, hazırda ARDNŞ-in elə əraziləri var ki, orada neft quyularına yaxınlaşmaq, onları idarə etmək və hasilata nəzarət etmək mümkün deyil: «Buna görə də hasilata birbaşa mane olan qanunsuz tikililər söküləcək».

R.Abdullayev əlavə edib ki, söhbət yaşayış olan evlərdən getmir: «Son vaxtlar bütün qadağalara və ciddi tədbirlərə baxmayaraq, həmin ərazilərdə tikinti işləri yenə də davam etdirilir. Bu vəziyyətdə bizim əsas işimiz köhnə tikililərin sökülməsindən çox, yeni tikililərə imkan verməməkdir. Bu ərazilərdəki bəzi sakinlər qanunsuz tikililəri hətta gecələr tikir və tikinti başa çatandan sonra bu evlərdə artıq neçə illərdir yaşadıqlarını iddia edirlər. Amma bizi bu məsələdə aldatmaq mümkün deyil. Çünki əlimizdə bu ərazilərin kosmosdan peyk vasitəsilə fasiləsiz çəkilən şəkilləri var. Hansı tikintinin nə vaxt və hansı saatda tikildiyini bilirik».

***Turxan Kərimov***

# Qubanın icra başçısı: «Qubada tam sakitlikdir, polisə çağırılan da yoxdur»

**«Qubada tam sakitlikdir, polisə çağırılan, həbs edilən də yoxdur». Bunu AzadlıqRadiosuna Quba rayonunun yeni icra başçısı Mübariz Ağayev deyib. Onun sözlərinə görə, evləri yandırmaqda və dövlət əleyhinə addım atmaqda ittiham olunanlardan yalnız 3 nəfəri indi həbsdədir: «7 nəfər idi, onların 4-ü buraxılıb. Qalan 3 nəfər də evləri yandıran, dövlət əleyhinə addım atanlardır, onlarla da söhbət aparılandan sonra buraxılacaqlar».**

Mübariz Ağayev rayonda geniş abadlıq işlərinə başladıqlarını deyir. Bildirir ki, bu işlərin əsas hissəsi sentyabr ayına qədər yekunlaşacaq. «500 min kvadratmetr yerdir, bunu bir saata, bir günə görmək mümkün deyil».

Mübariz Ağayev 1 mart hadisələrindən sonra Quba Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib. Rayonun sabiq icra başçısı Rauf Həbibovun 2011-ci ilin noyabrında icra hakimiyyətində qubalılarla bağlı dediyi fikirlər internetdə yayılandan sonra martın 1-də bu rayonda etiraz aksiyası keçirilib. Dinc aksiya sonradan icra hakimiyyətinin yardımçı binasının və sabiq başçının evinin yandırılması ilə nəticələnib. Martın 2-də Rauf Həbibov vəzifəsindən çıxarılıb.

Baş Prokurorluqla Daxili İşlər Nazirliyinin martın 29-da birgə yaydığı məlumatda həmin hadisələrlə bağlı



Mübariz Ağayev

həbs edilənlərin 12 nəfər olduğu göstərilir. Həbs olunanlardan 2-si Qubadakı «Xəyal» Televiziyasının əməkdaşlarıdır. Aprelin 4-də Qubada səfərdə olan hüquq müdafiəçiləri ilə görüşdə yerli sakinlər bildirmişdilər ki, 1 mart hadisələrinə görə ümumilikdə 200-ə yaxın şəxs istintaqa cəlb olunub, onlardan 30-dan çoxu həbsdədir.

***Maarif Çingizoğlu***




## «Qaynar Xətt»dən hüquqşünas məsləhəti al!

Qarşılaşdığın problemlər, qanunsuz davranışla bağlı **"Qaynar Xətt"**ə yaz, hüquqşünaslardan məsləhət al. Suallara hər həftənin şənbə günü **saat 18:05-dən 19-00-a** qədər hüquqşünaslar canlı efirdə **"Qaynar Xətt"** verilişində cavab verəcəklər.

**"Qaynar Xətt"lə əlaqə vasitələri:**

İstənilən vaxtda qaynar xəttimizə - **(012) 436 77 41** nömrəli telefona zəng edib sual və şikayətinizi səsləndirə bilərsiniz. Zənglər avtomat tərəfindən qəbul olunduğundan, rica edirik şikayətinizi bildirəndən sonra əlaqə nömrənizi də deyəsiniz ki, sizinlə əlaqə saxlaya bilək.

Yalnız canlı efir zamanı hər həftənin şənbə günü **saat 18:05-dən 19:00-a** qədər **efir@azadliqradiosu.az** elektron ünvanımıza e-mail şəklində, **(+99450) 7441017** nömrəsinə SMS şəklində şikayətlərinizi yaza bilərsiniz ki, suallarınız canlı efirdə cavablandırılsın.

# Sürücülərə cərimələr artırıldı

## Milli Məclis yol hərəkəti qaydalarını pozmağa görə cərimələri xeyli artıran dəyişikliyə səs verdi



Arxiv foto

**Azərbaycanın İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilib. APA-nın məlumatına görə, dəyişikliyə əsasən, bəzi yol hərəkət qaydalarının pozuntularına görə, cərimələrin məbləği artırılıb. Belə ki, təhlükəsizlik kəmərini bağlamadan nəqliyyat vasitəsini idarəetməyə görə cərimənin məbləği 15 manatdan 40 manata qaldırılıb.**

**HƏRƏKƏT SÜRƏTİ HƏDDİNİ AŞMAYA GÖRƏ**

Bundan başqa, yolda müəyyən edilmiş hərəkət sürəti həddini aşmaya görə cərimələrin məbləği də artırılıb. Yolda müəyyən edilmiş hərəkət sürətini 10-30 km/saat həddində aşmağa görə 20 manat (hazırda 15 manatdan 20 manata qədərdir), hərəkət sürətini 30-60 km/saat həddində aşmağa görə 100 manat (hazırda 20 manatdan 40 manata qədərdir), hərəkət sürətini 60 km/saat həddindən artıq aşmağa görə 150 manat (hazırda 40 manatdan 60 manata qədərdir) miqdarında cərimə müəyyən edilib.

**İDARƏETMƏ HÜQUQU OLMADAN İDARƏ ETMƏYƏ GÖRƏ**

Nəqliyyat vasitəsini idarəetmə hüququ olmadan nəqliyyat vasitəsinin idarə edilməsinə görə cərimənin məbləği 60 manatdan 100 manata qaldırılıb. Bu qayda pozuntusunun il ərzində təkrar törədilməsinə görə cərimənin məbləği 80-100 manatdan 200 manata qaldırılıb. Nəqliyyat vasitəsini idarəetmə hüququ olmadan nəqliyyat vasitəsinin idarə edilməsi nəticəsində zərər çəkən şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə və ya zərər çəkən şəxsə maddi zərər vurulmasına görə nəzərdə tutulan cərimə 400 manatadək artırılıb (hazırda 140 manatdan 180 manatadəkdir).

**SƏRXOŞ VƏZİYYƏTDƏ MAŞIN SÜRMƏYƏ GÖRƏ**

Nəqliyyat vasitəsini idarəetmə hüququ olmayan şəxs tərəfindən nəqliyyat vasitəsinin alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsinə görə 250 manat məbləğində cərimə təklif olunur. Hazırda bu cərimənin miqdarı 150 manatdan 200 manatadəkdir. Bundan başqa, dayanma, durma və parklanma qaydalarının pozulması ilə bağlı cərimələrin məbləği də artırılıb. Belə pozuntulara görə 20 manat cərimə müəyyən edilib (hazırda 15 manatdan 20 manatadəkdir).

Ümumi istifadədə olan nəqliyyat vasitələrinin dayanacaq meydançasında və ya yol nişanlarından 15 metrdən az yaxınlıqda digər nəqliyyat vasitələrinin dayanmasına və ya durmasına görə isə cərimənin məbləği 40 manata qaldırılıb (hazırda 15 manatdan 20 manatadəkdir).

**HƏRƏKƏT İSTİQAMƏTİNİN ƏKSİNƏ GÖRƏ**

Birtərəfli hərəkət yollarında müəyyən edilmiş hərəkət istiqamətinin əksinə hərəkət etməyə, habelə üfüqi nişanlanma xətlərinin tələblərini pozmaqla nəqliyyat vasitəsini tam olaraq əks istiqamətli nəqliyyat axınının hərəkət zolağına keçirərək nəqliyyat axınına əks istiqamətdə hərəkət etməyə görə cərimənin məbləği 100 manat məbləğində müəyyənləşib (hazırda 20 manatdan 40 manatadəkdir).

Həmçinin inzibati xətanı törətmiş şəxs müvafiq cəriməni, dəbbə pulunu, nəqliyyat vasitəsinin duracağa gətirilməsinə və onun orada saxlanılmasına görə haqqı inzibati xəta haqqında iş üzrə məhkəmə qərar qəbul edənədək ödədikdə inzibati məsuliyyətdən azad olunur. Məcəlləyə edilmiş digər bir dəyişikliklə görə nəqliyyat vasitələrini idarə etmək hüququnun məhdudlaşdırılması ilə bağlı cərimə balları 10 baldan 12 bala qədər artırılıb.

# AzadlıqRadiosu canlı - bütün mobil telefonlarda...




**Əziz oxucular!**

AzadlıqRadiosunu mobil telefonlarda dinləmək üçün sizin telefonunuz GPRS və ya Wi Fi İnternet şəbəkələrini dəstəkləməlidir. Aşağıdakı sadə prosedurları etsəniz, günün 24 saatı radiomuzu canlı dinləyə biləcəksiniz. Qeyd edək ki, bütün proses 1-2 dəqiqədən çox çəkmir. Mobil telefonlar üçün İnternet Radio proqramını aşağıdakı ünvandan endirin.

***http://azadlig.info/radio.zip***

Proqramı zip-dən azad edib - radio.jar faylını USB və ya Bluetooth vasitəsilə mobil telefonunuza yerləşdirib yükləyin. Bu zaman telefonunuzda aşağıdakı nişanlı proqram peyda olacaq.

Onu işə salın. Aşağıdakı şəkildəki proqram açılacaq.

Play-i basın, bir neçə saniyədən sonra AzadlıqRadiosunu canlı dinləyə bilərsiniz. Proqramı idarə eləmək çox sadədir.

Qeyd edək ki, İnternet Radio proqramını siz İnternetdən birbaşa telefona da yükləyə bilərsiniz. Bunun üçün aşağıdakı ünvana mobil telefonunuzdan daxil olun:

***http://azadlig.info/radio.jar***

Əgər sizin mobiliniz «Android», «Apple» və ya «BlackBerry» sistemli telefondursa, nəzərinizə çatdırırıq ki, bu modellərin özünün İnternet Radio sistemləri vardır. GPRS mobil İnternetdən istifadə edirsinizsə sizə ucuz başa gəlməsi üçün yaxşı olar ki, qabaqcadan GPRS trafik paketi alasınız («Azadlıq»ın dalğası 32 Kbit/san ilə yayılır).

Radiomuzu canlı olaraq İnternetdə dinləməklə bağlı sualınız varsa, **efir@azadliqradiosu.az** ünvanına e-mail yaz və ya 436-77-40 (daxili 1355) nömrəsinə zəng edə bilərsiniz!

# Mülkigeyimlilərin axtarışında


17 mart mitinqində mülkigeyimlilər

**Onlar qara rəngdə geyinirlər. İlk baxışdan adi vətəndaşdan seçilməsələr də, ictimai yükləri adi vətəndaşınkından fərqlidir: onlar etiraz aksiyalarının əsas atributlarıdır. Mülkigeyimlilərdən gedir söhbət.**

**NAMƏLUM 55**

ABŞ-da yaşayan azərbaycanlıların AZAD təşkilatı onların axtarışına çıxıb. Onların siyahısı, fotoları yerləşdirilir, oxuculara müraciət edilir. Məsələn, «Naməlum 55» kimi təqdim olunan mülkigeyimli barəsində deyilir: «Şəkildə gördüyünüz gənc sivil geyimli polis işçisidir. Sizin onun haqqında məlumatınız varsa, lütfən şərh bölməsində və ya e-mail ünvanımıza yazın».

Saytda hələ ki, 55 mülkigeyimli təqdim olunur. Gənclərin 17 mart mitinqi zamanı da mülkigeyimlilər fəallıq nümayiş etdirirdilər. Həm videoçəkilişlərdə, həm də gənclərin döyülməsində. «Bulistan» qrupunun gitaraçısı Natiq Kamilov da mitinqdə ilk yumruğunu mülkigeyimlidən aldığını deyir:

**«MÜLKİGEYİMLİLƏR BAYIRDA VURURLAR, İÇƏRİDƏ YOX»**

«Orda hamı mülkigeyimli olduğu üçün bilmirsən mülkigeyimli polis hansıdır. İnsanlar da mülkigeyimlidir. Mənə birinci yumruq vuranı polisdə də gördüm, amma sonra fərqinə vardım. Həm də onun rütbəsi yüksək idi, çoxlu təhqir edirdi, söyüş söyürdü. Mülkigeyimlilər əsasən çöldə mitinq vaxtı vururlar. İçəridə isə polis formasındakılar rahat-rahat vururdular».


Natiq Kamilov

**«BUNLAR HANSI YUVANIN QUŞUDUR?»**

Nə «Polis haqqında», nə də «Sərbəst toplaşmaq haqqında» qanunda mülkigeyimli şəxslərin mitinqlərə cəlb olunmasına dair bir fikrə rast gəlmədik. Elmi-Praktik Hüquq Mərkəzinin eksperti Mahmud Hacıyev də hesab edir ki, bu, kobud qanun pozuntusudur, sivil ölkələr mülki şəxslərin mitinqə müdaxiləsinə yol verməz: «Onların alnına yazılmayıb ki, bunlar hüquq-mühafizə orqanının işçiləridir. Üstəlik, hər hansı şəxsə fiziki müdaxilə edəndə, belə bir təsəvvür yaranır ki, onlar qoçulardır, qoluzorlulardır. Axı qıraqdan baxan bilmir bunlar hansı yuvanın quşudur? Ən təhlükəli vəziyyət də nədir? Həmin tədbirlər vaxtı cinayətə meyilli şəxslər, cinayətkar ünsürlər mülki geyimdə onlara qoşulub hərəkət edə bilərlər. Belə bir təsəvvür yaranar ki, bunlar da orqan işçisidir».

**MÜDAXİLƏ YOX, MÜŞAHİDƏ!**

Mahmud Hacıyev keçmiş polis rəisi kimi öz təcrübəsindən də danışdı. Onun müşahidəsinə görə, mülkigeyimli şəxslərdən istifadə son 10 ildə vüsət alıb: «Sovet dönəmində də belə tədbirlərdə mülkigeyimli xüsusi xidmət orqanlarının əməkdaşları iştirak edirdi. Onlar ancaq və ancaq müşahidə etmək niyyəti ilə qatılırdılar. Heç kimə bildirmirdilər və heç kimə qəti surətdə toxunmurdular. Müəyyən iğtişaş olanda, ona da müdaxilə etmirdilər. Çünki de-şifrə oluna bilərdi».

Daxili İşlər Nazirliyi mətbuat xidmətinin əməkdaşı Orxan Mansurzadə isə AzadlıqRadiosuna bildirib ki, polis əməkdaşının mülki geyimdə kütləvi tədbirə çıxması qanuna zidd hesab oluna bilməz: « Əsas məsələ polisin qanunla üzərinə düşən vəzifəsinin öhdəsindən necə gəlməsidir. Belə tədbirlər zamanı adətən terror, təxribat hallarının qarşısını almaq üçün mülki geyimdə polis əməkdaşlarından istifadə olunur. «Polis haqqında» qanunda xidmət aparарkən polis əməkdaşının mülki, yaxud xidməti geyimdə olmasına dair heç bir maddə yoxdur. Qanunda mülki geyimlə bağlı qadağanedici heç bir tələb yoxdursa, deməli, bu, qanunidir».

***Durna Səfərli***


Sabirabadda aksiya, 23 aprel 2011

# Sabirabadda sakinlərin etirazına görə icra nümayəndəsi işdən çıxdı

**Kənd sakinlərinin etirazından sonra Sabirabad rayonu Minbaşı kəndinin icra nümayəndəsi Bəylər İsgəndərov və onun müavini Qədir Əliyev işdən çıxıb. Aprelin 3-ü və 4-də Minbaşı kəndinin sakinləri daşqından zərərə görə onlara çatacaq kompensasiyanı hələ də ala bilməmələrinə etiraz etmişdilər. Sakinlərin dediyinə görə, onlara ayrılan vəsait kənd icra nümayəndəliyi tərəfindən mənimsənilib.**

Sabiq icra nümayəndəsi Bəylər İsgəndərov isə vəsaitin mənimsənilməsi barədə deyilənləri təkzib edir: «Bu kənddə 215 evə Fövqəladə Hallar Nazirliyi baxış keçirib. Həmin evlərin 90-na bərpa-gücləndirmə üçün pullar ayrılıb. Həmin pullar da verilib. İndi yerdə qalan sakinlər elə bilir ki, pul hamıya verilməlidir. Ona görə də bəzi qüvvələr belə fikir yayırlar ki, guya biz pulu mənimsəmişik. Axı həmin pula bizim heç əlimiz də dəymir, onu necə mənimsəyə bilərik. Gördük söz-söhbət səngimir, ərizəmizi yazıb işdən çıxdıq».

Sakinlər isə bildirirlər ki, onların tələbləri kompensasiyaları mənimsəyənlərin məsuliyyətə cəlb edilməsi, onlara ayrılan kompensasiyaların verilməsidir. İcra hakimiyyətindən isə sakinlərə deyilib ki, kompensasiyalarla bağlı məsələyə aprelin 10-da baxılacaq. Minbaşı kənd sakinləri deyirlər ki, onlar həmin tarixi gözləyirlər. Verilən vədlər yerinə yetirilməsə, yenidən aksiyalara başlayacaqlar.

# Что Израиль поставил Азербайджану?



Беспилотник Heron

*Пишущий о военных межгосударственных отношениях сайт StrategyPage опубликовалсписок перечня поставок израильского вооружения в Азербайджан на основе соглашения на сумму $1,6 млрд, которое заключено в 2012 году.*
*Шеф-редактором этого портала является Джеймс Даннигэн – консультант Госдепа США по вопросам обороны.*

StrategyPage утверждает, что среди приобретенного вооружения значатся противокорабельные ракетыGabriel - 522-х килограммовые ракеты с дальностью действия 36 км. В списке также значатся по 5 беспилотников Heron и Searcher. Heron - 4.6 тонный аппарат, способный работать на высоте в 14 км, несет тонну полезной нагрузки, позволяя разместить датчики, способные предоставить подробное представление о том, что находится на земле. Продолжительность полета Heron - 36 часов (конкурент американского MQ-9 Reaper).

Searcher весит 2,5 тонны и может оставаться в воздухе в течение 20 часов. Максимальная высота полета составляет 7,5 км, дальность - до 300 километров от оператора. Полезная нагрузка - 120 кг. StrategyPage отмечает, что из систем противовоздушной обороны Азербайджан приобрел системы Barak-8 и 75 ракет к ним. Каждая такая ракета стоит около $1,6 млн, весит 98 кг, вместе с 21,8-килограммовой боеголовкой, обладает дальностью стрельбы 10 км, запускаются вертикально.

Каждая система Barak (контейнер с ракетами, радар, компьютеры и установка) стоит около $24 миллионов, отмечает сайт. Barak может быть установлен также на кораблях и грузовиках. Сайт военных отношений сообщает, что также частью сделки является приобретение радиолокационной системы Green Pine, которую Израиль сам сейчас и использует. Green Pine может обнаруживать баллистические ракеты на расстоянии до 500 км, а также приближающиеся самолеты.

StrategyPage добавляет, что «Азербайджан уведомил Иран, что все это оружие предназначено не для использования против этой страны, а для решения территориального спора с соседней Арменией».

# Президент Чехии: "Я понимаю Азербайджан"

**Президент Чехии Вацлав Клаус заявил 5 апреля, что если бы часть и его страны находилась под оккупацией, то и он не стерпел бы этого: «Я открыто заявляю по вопросу Карабахского конфликта, что очень хорошо понимаю Азербайджан. Но к сожалению, я не могу предложить какого-либо невероятного варианта урегулирования этого конфликта».**

Эти слова президент Чехии произнес на совместной пресс-конференции после встречи в Праге с президентом Азербайджана Ильхамом Алиевым. Ранее в этот же день были подписаны несколько азербайджано-чешских документов - в сфере туризма, культуры, музеев и библиотек.

На пресс-конференции было сообщено, что президенты также обсудили и экономическое сотрудничество между странами. Чешский президент заявил, что 25% потребности в нефти для Чехии обеспечивает Азербайджан. Ильхам Алиев же добавил, что на переговорах обсуждены вопросы привлечения к инфраструктурным проектам в Азербайджане и чешских компаний, которым «Баку готов обеспечить любые условия работы».

На вопрос чешских журналистов о положении в Сирии проезидент Азербайджана ответил, что «в данном вопросе полностью поддерживает план Кофи Аннана»: «Азербайджан сыграл активную роль в принятии в ООН резолюции по Сирии. Надеемся, что сложившаяся ситуация урегулируется в скором времени и будут предотвращены убийства мирных граждан этой страны».



Ильхам Алиев (справа) и Вацлав Клаус, Баку, 17 мая 2011

# "У Ирана есть база для создания ядерного оружия"

**Влиятельный иранский парламентарийГоламреза Месбахи Могхадам заявил, что Иран располагает всей необходимой научной базой для создания ядерного оружия. По словам законодателя, Иран может легко получать обогащенный уран, который используется при производстве атомных бомб, но "этот путь совсем не отвечает интересам Тегерана".**

Могхадам заявил об этом в интервью для сайта, публикующего сводки новостей иранского парламента. Подчеркивается, что его комментарии не отражают официальную позицию руководства страны.

Тем не менее, как отмечает агентство Associated Press, Могхадам стал первым иранским чиновником, публично признавшим, что Тегеран владеет технологией производства ядерного оружия. Власти Ирана всегда отрицали предположения Запада по поводу возможной военной составляющей ядерной программы страны.

# Avropalı komissar Azərbaycanla bağlı narahatlıq doğuran cərəyandan danışdı


Štefan Füle

**Avropa Birliyi Dağlıq Qarabağ münaqişəsinin tərəfləri ilə etimad mühitinin formalaşdırılmasına dair yeni təkliflər paketi hazırlayıb. Bu barədə Bakıda səfərdə olan Avropa Birliyinin Avropa Qonşuluq Siyasəti və Genişlənmə məsələləri üzrə komissarı Ştefan Füle deyib. Amma o, detallar barədə danışmayıb. Bircə onu deyib ki, onların vəzifəsi bu təkliflər əsasında münaqişəni həll etmək deyil, sadə insanlar səviyyəsində təmaslar qurmaqdır. O, Avropa Birliyinin Qarabağ münaqişəsinin həllində rol oynaması ilə bağlı suala belə cavab verib:**

**FRANSANIN DƏYİŞDİRİLMƏSİNDƏN SÖHBƏT GEDƏ BİLMƏZ**

«Avropa Birliyi ATƏT-in Minsk Qrupunun səylərini dəstəkləyir. Bu, birliyin son bəyanatlarında da əksini tapıb. Ona görə də ATƏT-in Minsk Qrupunun həmsədri olan Fransanın dəyişdirilməsindən söhbət gedə bilməz». Aprelin 3-də Azərbaycan Xarici İşlər Nazirliyində brifinq keçirən Ştefan Füle bildirib ki, onun Bakıya səfərinin əsas məqsədi həm Avronest Parlament Assambleyasının Brüsseldən kənardakı ilk iclasında iştirak etmək, həm də öz həmkarları ilə müxtəlif sahədə müzakirələr aparmaqdır. Ştefan Füle deyib ki, Avropa Birliyi ilə Azərbaycan arasında müsbət irəliləyiş görür və Bakıya gəlməklə bu münasibətlərin nə qədər əhəmiyyətli olduğunu göstərməkdir.

**"BU DA XEYLİ NARAHATLIQ DOĞURAN BİR CƏRƏYANI GÖSTƏRİR"**

Şərq Tərəfdaşlığı Proqramında Azərbaycanın bir tərəfdaş kimi imkanları olduğunu söyləyən komissar mayda Bakıda keçiriləcək «Eurovision» müsabiqəsinə də toxundu: «Gələn ay keçiriləcək tədbir təkcə Azərbaycanı dünyaya bir pəncərə kimi açmayacaq, həm də ölkəyə diqqəti artıracaq, özü də təkcə mədəniyyət baxımından deyil. Bu günlərdə beynəlxalq təşkilatların insan hüquqları ilə bağlı narahatedici bəyanatları, təkcə Avropa Birliyindən azı 8 bəyanat olub ki, bu da xeyli narahatlıq doğuran bir cərəyanı göstərir. Mən bu barədə nazirlə səmimi söhbət etdim».

Avropalı komissar Azərbaycanda dini tolerantlıq olduğunu bildirdi və dedi ki, insan haqlarının qorunmasında bu amil də vacibdir.

**«MÜNAQİŞƏNİ YERİNDƏN TƏRPƏDƏK»**

Xarici İşlər naziri Elmar Məmmədyarov isə bildirdi ki, onlar brifinqdən əvvəl komissarla Qarabağ münaqişəsində Avropa Birliyinin töhfəsini müzakirə ediblər: «Bu istiqamətdə təklifləri müzakirə etmişik ki, Avropa İttifaqı tərəfindən həm Ermənistana, həm də Azərbaycana köməklik olsun ki, bu münaqişəni yerindən tərpədək. İnsan hüquqlarına da toxunmuşuq, bu məsələ həmişə gündəmdədir, bir də təhlükəsizlik məsələsini müzakirə etmişik».

**«DEDİM, ELƏ BİLİRSİZ AZƏRBAYCANDA DİKTATURA YOXDUR»**

Ştefan Füle təkcə hakimiyyət rəsmiləri ilə yox, həm də müxalifət liderləri, vətəndaş cəmiyyətinin təmsilçiləri ilə də görüşüb. Bu barədə AzadlıqRadiosuna danışan Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunus dedi ki, avropalı komissar onlara açıq dialoq təklif edib.

«Söylədi ki, insan hüquqları onlar üçün prioritet məsələlərdir və bu sahədə islahatlar gözləyirlər» - deyən Leyla Yunus bildirdi ki, ölkədə insan haqları ilə bağlı problemləri komissarın diqqətinə



Leyla Yunus

çatdırıblar: «Dedim ki, siz Belarusdakı diktaturaya görə o ölkəyə qarşı tədbirlər görürsüz. Amma elə bilirsiz ki, Azərbaycanda diktatura yoxdur. Deyirsiz ki, «hökumət, prezident sizə deyir ki, burda islahatlar olacaq». Amma bu, sözdür, sözə inanmaq olmaz, reallığa baxmaq lazımdır. Misallar gətirdik».

Leyla Yunus deyir ki, onlar işgəncə faktlarını sadalayıblar, mülki hüquqların pozulmasına dair misallar gətiriblər, jurnalistlərə qarşı təzyiq və şantaj üsullarından danışıblar, siyasi məhbus məsələsini də qaldırıblar. Müsahibimiz deyir ki, onlar Avropa Birliyindən Azərbaycan vətəndaş cəmiyyətinə dəstək gözlədiklərini bildiriblər.

***Səadət Akifqızı***

# Rafiq Tağının ailəsi yenidən prezidentə müraciət etməyə hazırlaşır


Rafiq Tağı

Yazıçı-publisist Rafiq Tağının ailəsi yenidən prezident İlham Əliyevə müraciət etməyə hazırlaşır. Bunu «Media forum» saytına Rafiq Tağının qardaşı İlqar Tağı deyib. Onun fikrincə, hüquq-mühafizə orqanları işə dırnaqarası yanaşır və onların prezidentə yenidən müraciət etmək istəyi də bununla bağlıdır: «Artıq qətlin üstündən beş aya yaxın vaxt ötür. Amma heç bir yenilik yoxdur. Demək olar, hər gün Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə zəng edirəm. Amma normal bir cavab vermirlər. Elə eyni sözləri təkrarlayırlar». Xatırladaq ki, Rafiq Tağı 2011-ci il noyabrın 19-da Bakıda, yaşadığı evin yaxınlığında bıçaqlanıb. Noyabrın 23-də o, müalicə olunduğu Kliniki Tibbi Mərkəzdə vəfat edib. İndiyədək bu cinayətə görə məsuliyyətə cəlb edilən olmayıb.

2012-ci ilin fevralında Rafiq Tağının ailəsi prezident İlham Əliyevə müraciət etmişdi.

# Gəncədə MTN əməkdaşını öldürən silahlılar kimlərdir?

## MTN terror planlaşdıran 17 nəfəri ifşa etdiyini bildirir



*Aprelin 6-da Gəncə şəhərində silahlı qarşıdurma olub. Hadisə Təbriz küçəsi, 93 saylı binanın 3-cü mərtəbəsində baş verib. Məlumata görə, hüquq-mühafizə orqanının əməkdaşları həmin mərtəbədə qalan sakinləri təhlükəsizlik məqsədi ilə binadan çıxarıb. AzadlıqRadiosunun hadisə yerində olan müxbiri xəbər verib ki, olay zamanı ərazi Milli Təhlükəsizlik Nazirliyinin silahlı əməkdaşları və polis tərəfindən əhatəyə alınıb. Heç kim əraziyə buraxılmayıb: "Mən lap yaxınlıqdayam, 3-cü mərtəbədəki evin aynabəndindən görünür ki, 4 nəfər içəridə gəzişir. Sakinlər deyirlər ki, həmin adamlar çoxdan bu mənzildə yaşayırlar və indiyə qədər hər hansı problem baş verməyib. Hələ ki, ərazidə olan təhlükəsizlik qüvvələri heç bir açıqlama vermirlər. Ölən, bir neçə yaralının olması barədə ilkin məlumatlar var. Yaralıların Gəncədəki 3 saylı xəstəxananın reanimasiya şöbəsində olduğu bildirilir. Xəstəxanadan yaralıların gətirildiyini təsdiqləsələr də, ətraflı məlumat verməkdən imtina etdilər".*

Hadisə günü hüquq-mühafizə orqanları Gəncədə baş verənlərlə bağlı heç bir məlumat açıqlamırlar. Amma Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov AzadlıqRadiosuna deyib ki, bu barədə ictimaiyyətə məlumat veriləcək.

**EV KİRAYƏYƏ VERİLİBMİŞ**

Artıq yerli informasiya agentlikləri silahlı dəstə üzvləri ilə qarşıdurmada ölən Milli Təhlükəsizlik Nazirliyinin polkovnik-leytenant rütbəli əməkdaşının adını açıqlayıblar. Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Arif Babayev AzadlıqRadiosuna deyib ki, əməliyyat tədbirləri hələ davam etdiyindən baş verənlərə əlavə şərh verilmir.

Apardığımız araşdırmalardan məlum olub ki, silahlı dəstənin qaldığı 31 saylı mənzil hazırda Rusiyada yaşayan Gəncə sakininə məxsusdur. Ev sahibi uzun müddətdir ki, evi həmin şəxslərə kirayəyə veribmiş. Həmin ərazidəki 3 saylı Mənzil İstismar Sahəsindən aldığımız məlumata görə, onlar həmin mənzilin kirayə verilməsindən xəbərdar olsalar da, orda kimlərin yaşaması barədə məlumatsız oublar: «Evin sahibi indi Rusiyada yaşayır. Amma orda kirayə qalanları biz tanımamışıq».

**SİLAHLILAR ZƏRƏRSİZLƏŞDİRİLİB**

Hadisə yerində olan müxbirimiz xəbər verir ki, silahlı şəxslər zərərsizləşdirilib. Amma rəsmi qurumlar baş verənlərlə bağlı hər hansı açıqlama vermirlər. Hazırda hüquq-mühafizə orqanları ərazidədirlər. Müəyyən istintaq hərəkətləri aparılır.

**2 NƏFƏRİN ÖLDÜYÜ, 2 NƏFƏRİN YARALANDIĞI BİLDİRİLİR**

Gəncə Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasından AzadlıqRadiosuna bildiriblər ki, hadisə zamanı 2 nəfər ölüb, 2 nəfər də yaralanıb. «Ölənlərdən biri Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşıdır. Biri də terrorçudur. Yaralılar haqda bizdə dəqiq məlumat yoxdur. 2 nəfərin yaralandığı və Bakıya aparıldıqları deyilir». Bu məlumatı verən Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının əməkdaşı adının açıqlanmasını istəməyib.

**3 NƏFƏR SAQQALLI OLMAYIB, AMMA...**

Əməliyyat bitəndən sonra AzadlıqRadiosunun müxbiri Gülnur Raqifqızı hadisə baş verən blokda olub: «Mən 3-cü mərtəbəyə qədər qalxdım. Blokda hər yer qan içində idi. Pilləkəndə əməliyyatçılar qeydlər aparmışdılar. Silahlı dəstənin olduğu mənzilin qapısı isə möhürlənmişdi. Qonşular danışmaq istəmədi. Bir nəfər adının açıqlanmasını istəməyən sakin dedi ki, həmin 3 nəfər saqqallı olmayıb, amma şalvarları qısa olub. Həmişə səliqəli geyimdə olublar. Qonşularla da görüşüb salamlaşıblar».

**MTN ZAQATALADA DA ƏMƏLİYYAT KEÇİRİB, 4 NƏFƏR SAXLANIB**

Milli Təhlükəsizlik Nazirliyi aprelin 5-də Zaqatala rayonunda da əməliyyat keçirib. Rayonun hüquq-mühafizə orqanlarından APA-ya verilən məlumata görə, əməliyyat zamanı 4 nəfər saxlanılıb. Zaqatalada həyata keçirilən əməliyyatın Gəncə əməliyyatı ilə bağlılığı istisna edilmir.

**TƏLƏSMƏLİ OLUBLAR**

Təhlükəsizlik Araşdırmaları Mərkəzinin rəhbəri İlham İsmayıl deyir ki, Nazirliyin yüksək rütbəli əməkdaşı həlak olursa, deməli, əməliyyata uzun müddət hazırlıq görülməyib:

«Görünür, belə hesab olunub ki, Gəncədə olan dəstə üzvləri aradan çıxa bilər. Bu səbəbdən də gecə ikən belə əməliyyat keçirilib. Bu əməliyyata yaxşı hazırlıq olsaydı, həmin silahlı dəstə üzvlərini sakitcə də tutmaq olardı. Görünür, həqiqətən də Zaqatala ilə bağlılıq var burda. Amma ən dəqiqini yəqin MTN özü yayacaq».

İlham İsmayıl Azərbaycanın həmişə beynəlxalq terrorun hədəfində olduğunu da vurğulayır.

**MTN TERROR PLANLAŞDIRAN 17 NƏFƏRİ İFŞA ETDİYİNİ BİLDİRİR**

Milli Təhlükəsizlik Nazirliyi (MTN) aprelin 6-da yaydığı məlumatda bildirir ki, Azərbaycanda təxribat-pozuculuq və bir sıra terrorçuluq aksiyalarını planlaşdıran silahlı birləşmənin 17 üzvünü ifşa edib.

Nazirliyin rəsmi məlumatına əsasən, Bakı, Gəncə, Sumqayıt şəhərlərində, eləcə də Qax, Zaqatala, Şəki və Qusar rayonlarında xüsusi əməliyyat keçirib. Silahlı birləşmənin saxlanılmış üzvlərindən avtomat silahlar, pulemyot, tapançalar, əl qumbarası, uzaqdan idarə edilən partlayıcı qurğu, külli miqdarda partlayıcı maddə olan plastid, rabitə aparatı aşkar edilərək götürülüb.

Məlumatda bildirilir ki, Gəncə şəhərində həyata keçirilmiş əməliyyat zamanı MTN-in xüsusi təyinatlı dəstəsinin əməkdaşlarına qarşı silahlı müqavimət göstərilib. Təslim olmaq barədə qanuni tələbə tabe olmayan şəxslər xüsusi təyinatlılara atəş açıb və əl qumbarası atıblar. Nəticədə MTN-in əməkdaşlarından 1-i həlak olub, 3-ü yaralanıb. Silahlı müqavimət göstərən şəxslərdən 1-i məhv edilib, 1-i yaralanıb, qrupun daha 2 üzvü isə yaxalanıb.

MTN-dən qrupun kimliyi və mənşəyi haqqında ətraflı məlumat verilmir. Yalnız onların çağırış edən silahlı qrup olduğu qeyd edilir.

***Gülnur Raqifqızı,***
***Maarif Çingizoğlu,***
***Şahnaz Bəylərqızı***

# Ramzan Kadırov nefti "Rosneft"-dən alıb Azərbaycana təklif edir


Ramzan Kadırov

*Çeçenistan Azərbaycanı yeni neft yataqlarının kəşf olunması işinə dəvət edib (Röyters). Çeçenistan rəsmiləri deyirlər ki, Rusiyanın "Rosneft" şirkətinin respublikada neft istehsal edilməsi üçün lisenziyasının müddəti artıq bitib. Çeçenistan rəhbərliyi "Rosneft"dən narazıdır, şirkətin yeni yataqların kəşfi üçün yetərincə iş görmədiyi qənaətindədir və Azərbaycanın Dövlət Neft Şirkətinə təklif də bu kontekstdə edilib. Təklif haqda Bakıda jurnalistlərə Çeçenistanın maliyyə naziri Əli İsayev məlumat verib.*

**KADIROV DAHA ÇOX MÜSTƏQİLLİYƏ CAN ATIR**

Mediada yer alan məlumatlara görə, Çeçenistan lideri Kadırov "Rosneft"in respublikada illik gücü 1 milyon ton olan neft emalı zavodu tikmək təklifinə həvəssiz yanaşmasından da narazıdır. Belə bir zavod Çeçenistana daha çox iqtisadi müstəqillik vermiş olar, onun Moskvadan asılılığını azaldardı. "Rosneft" Çeçenistanın Azərbaycana əməkdaşlıq təklif etməsinə münasibət bildirməyib. Rusiyanın Energetika Nazirliyinin məlumatına görə, "Rosneft"in Çeçenistandakı qolu olan "Qroznıneftqaz" ötən il 800 min ton neft çıxarıb. Bu da "Rosneft"in ümumi istehsalının 7 faizinə bərabərdir.

"Qroznıneftqaz"ın təsdiq edilmiş neft ehtiyatları 60 milyon ton, qaz ehtiyatları isə 3 milyard kubmetrdir. "Qroznıneftqaz" 2000-ci ildə Çeçenistanin sovet dövründən qalma neft-qaz sənayesi əsasında yaradılıb. Həmin sənaye isə federal hökumətlə çeçen döyüşçülər arasında müharibə nəticəsində böyük ziyan görmüşdü.

**AZƏRBAYCANDA ÇEÇENİSTANIN YATAQLARINA MARAQ AZDIR**

Yeni yataqların kəşf edilməsi təklifi niyə başqa bir rus şirkətinə, yaxud tanınmış Qərb şirkətinə yox, Azərbaycana edilib? Azərbaycandakı Neft Araşdırmaları İnstitutunun direktoru İlham Şaban deyir ki, əslində buna oxşar təkliflər əvvəllər də olub. Özü də təkcə Çeçenistandan yox, Dağıstandan da. Sadəcə, Azərbaycan bu təkliflərə elə bir maraq göstərməyib:

- Səbəb odur ki, Azərbaycanda Şimali Qafqaz Respublikasındakı layihələri riskli və az gəlirli sayırlar. Məsələn, Dağıstanda neft sahəsindəki qurğulara hücumlar olur, neft oğurluğu isə adi hal alıb. Azərbaycana vaxtilə Suriya və İraqdan da buna oxşar təkliflər gəlmişdi. Azərbaycan belə riskli zonalara yatırım qoymağa meyilli deyil. Rusiya, Qazaxıstan və s. ölkələrə investisiya qoyub. Dövlət Neft Şirkəti indiyəcən sərmayə qoyduğu sahələrdə uğursuzluğa düçar olmayıb.

O ki qaldı Çeçenistanın təklifi Azərbaycana etməsinə, İlham Şaban deyir ki, Azərbaycan regionda iqtisadi mərkəzə çevrilir. Əgər əvvəllər Şimali Qafqazdan olanlar daha çox gəlib Bakının ticarət mərkəzlərindən mal vurub aparıb öz respublikalarında satmaqla məşğul idilərsə, indi bu əlaqələr çox sıxlaşıb və bu kontekstdə Şimali Qafqazdan neft yataqlarının kəşfi ilə bağlı təklifin də Azərbaycana edilməsi təəccüblü görünməməlidir.

***Rövşən Qənbərov***

# Qəbələdə qar uçqununa düşən ovçuların cəsədləri tapılıb

Aprelin 7-si saat 09:30 radələrində itkin düşmüş şəxslərin cəsədləri «Qoçqaya» adlanan ərazidə, 3 metr dərinlikdə qar uçqununun altından tapılaraq çıxarılıb. Məlumatı Fövqəladə Hallar Nazirliyi yayıb. Qəbələ rayonu, Vəndam kəndinin 3 sakini martın 30-da ov etmək məqsədi ilə dağa getmiş və geri qayıtmamışdılar. Yaxınları onların qar uçqununa düşdüyünü bildirirlər. Hadisə yerinə Fövqəladə Hallar Nazirliyinin aviasiya dəstəsinin 1 helikopteri, xilasedicilər, həmçinin xüsusi təlim keçmiş itlər cəlb olunmuşdu.

# Moldova Ermənistana silah satışını araşdırır



*Moldovanın parlament komissiyası bildirib ki, Ermənistana silah satışının araşdırılması üçün Baş Prokurorluğa müraciət edəcək. Komissiya həmin silah sazişi ilə bağlı hesabatını cümə axşamı çap edib. Hesabatda deyilir ki, bu saziş Moldovanın bir neçə qanununu pozur. Hesabat tövsiyə edir ki, Moldovanın rəsmi şəxsləri, o cümlədən müdafiə naziri Vitalie Marinuta sazişlə bağlı sorğu-suala çəkilsin. Məlumatlara görə, bu saziş keçən ilin yayında bağlanıb və adı çəkilməyən 50 ton hərbi materialla bağlıdır. Bu saziş Moldova ilə Azərbaycan arasında diplomatik gərginliyə səbəb oldu. Bundan sonra keçən noyabrda Moldova hökuməti bu sazişi ləğv etdi.*

Ancaq cümə axşamı parlamentdə müzakirə zamanı bir sıra deputatlar hökuməti münaqişə zonalarına silah satmaqda ittiham ediblər. Demokrat Partiyasından olan Dimitru Diacov deyib ki, o bu yaxınlarda Bakıda olub və "əmin olun ki, azərbaycanlılar bunu yaddan çıxartmayıb". Kişinyovdan gələn məlumatlara görə, Moldovanın baş naziri Vlad Filat deyib ki, azərbaycanlılar şikayət edənə qədər onun bu sazişdən xəbəri olmayıb. Media məlumatlarına görə, müdafiə naziri Vitalie Marinuta Ermənistana silah satışı sazişinə görə öz vəzifəsini itirə bilər.

Korrupsiometr

**Dəyərli oxucular!**

AzadlıqRadiosunun korrupsiya halları ilə bağlı maraqlı araşdırmalarını, xəbər və reportajlarını **AzadliqRadiosu.az** saytında **"Korrupsiometr"** bölümündə oxuyun. Səs yazılarını dinləyin, videolara baxın.

# İnsan alverinin Azərbaycan variantı


Arxiv foto

**Xaçmazdan Astaraya bir qadın gətirilib cinsi istismara məcbur edilir. Ancaq Azərbaycan qanunları ilə o, heç də insan alverinin qurbanı sayılmır. Yerli qanunvericiliklə, qurban yalnız ölkədən kənara çıxarıldığı halda, bu, insan alveridir. Beynəlxalq qaydalara görə isə, cinsi istismar o zaman insan alveri sayılır ki, qurban şantaj olunur, döyülür, sənədləri alınır, narkotikadan asılı edilir və s.**

**ÖLKƏDAXİLİ ALVER DAHA SƏRFƏLİDİR**

«Beynəlxalq və yerli qaydalar arasındakı bu fərq son vaxtlar ölkədə insan alverində yeni tendensiya da yaradıb. Azərbaycanda insan alverçiləri indi daha çox ölkədaxili cinsi istismara keçiblər, çünki bu, daha «sərfəlidir»». Bunu Qadın Krizis Mərkəzinin rəhbəri Mətanət Əzizova deyir: «Ona görə də fahişəlik artır. Çünki ölkədaxili cəza demək olar yüngüldür. Əxlaqsızlıq yuvalarının saxlanması və cinsi istismara məcburetmə üçün cərimə, yaxud şərti cəza nəzərdə tutulur».

Yerli qanunlar insan alveri ilə məşğul olanlar üçün 5 ildən 15 ilədək (xüsusi ağırlaşdırıcı hallarda) cəza nəzərdə tutur. M.Əzizovanın dediyinə görə, insan alveri məsələləri ilə məşğul olan QHT-lər məsələ qaldırırlar ki, insan alverində sərhəd məsələsi deyil, beynəlxalq qaydalar əsas götürülsün. Ötən il Azərbaycanda insan alveri ilə bağlı 70 cinayət faktı qeydə alınıb, 4 cinayətkar qrup zərərsizləşdirilib, 18 cinayətkar ifşa edilib. Aşkar olunan insan alveri qurbanlarının sayı isə 27 nəfərdir. Bu məlumatı ötən ilin sonlarında DİN-in İnsan Alverinə Qarşı Mübarizə İdarəsinin rəisi Cavad Şıxəliyev səsləndirib.

**STATİSTİKA NAMİNƏ**

Qadın Krizis Mərkəzinin rəhbəri Mətanət Əzizova isə deyir ki, İnsan Alverinə Qarşı Mübarizə İdarəsi daha çox cinsi istismarla mübarizə ilə məşğul olur. Çünki bu, daha rahatdır: «Bizdə fahişəliklə məşğul olmaq, əxlaqsızlıqla məşğul olmağı birləşdirib rəqəmləri şişirdirlər ki, statistika çox olsun. Könüllü fahişəlik, ümumiyyətlə, insan alverinə aid deyil».

**İLDƏ 32 MİLYARD DOLLARLIQ GƏLİR**

Hazırda dünyada 2,4 milyon adam insan alverinin qurbanıdır. Onlardan 80 faizi cinsi istismara məruz qalır. Bunu BMT-nin Narkotika və Cinayətkarlıqla Mübarizə İdarəsi aprelin 3-də bildirib. İdarənin başçısı Yury Fedotov BMT Baş Assambleyasının insan alverinə həsr olunmuş iclasında deyib ki, qurbanların 17 faizi evlərdə və mağazalarda məcburi əməyə cəlb olunur. O bildirib ki, insan alveri şəbəkələrini idarə edən cinayətkarlar ildə 32 milyard dollar qazanır. Hər üç qurbandan ikisi isə qadındır.

Fedotov deyib ki, bu cinayətkarlar


Yury Fedotov

cəmiyyətin böyük hissələri üçün problemdir: «Eyni zamanda 2,4 milyon adam bu alçaldıcı və aşağılayıcı cinayətdən əziyyət çəkir». Fedotovun Vyanada yerləşən ofisindən verilən məlumata görə, yalnız 100 qurbandan birini xilas etmək mümkün olur. Fedotov bu cinayətkarlıqla mübarizədə yerli, regional və beynəlxalq cəhdlərin koordinasiya olunmasına çağırıb.

***Arifə Kazımova***

# Zahid Oruc da tenderləri pislədi


Milli Məclis

*«Ölkədə tender sistemi pis işləyir. Nazirliklər tenderi düzgün aparmırlar. Mənimsəmələr də burdan başlayır». Deputat Zahid Oruc Milli Məclisdə Hesablama Palatasının hesabatına münasibət bildirərkən belə deyib. Aprelin 6-da Hesablama Palatasının sədri Heydər Əsədov qurumun ötənilki fəaliyyəti ilə bağlı parlamentə hesabat verib. O, rüsumdan yayınmalardan, debitor borcların yaranma səbəblərindən və investisiya sahəsində düzgün qiymətləndirmə aparılmamasından danışıb. Heydər Əsədov deyib ki, audit prosesinə hələ də səriştəsiz təşkilatların cəlb olunması, təhsil, səhiyyə sahəsində artıq ştat vahidlərinin saxlanılması halları davam edir.*

**«25 NƏFƏR VƏZİFƏLİ İŞDƏN ÇIXARILIB»**

Palata sədrinin dediyinə görə, hesabat müddətində dəymiş ziyanla bağlı yüz min manatlarla vəsaitin büdcəyə ödənilməsi təmin edilib: «Apardığımız yoxlamalar zamanı işdən çıxarılanların sayı ümumilikdə iki nazirliyin strukturunda çalışanların sayına bərabərdir. Çıxarılanların 25 nəfəri vəzifəli şəxsdir. 1 yüksək vəzifəli şəxs işdən çıxarılıb, 1 nəfər aşağı vəzifəyə göndərilib, 50 nəfərə töhmət verilib, 2 cinayət işi açılıb. İradlardan nəticə çıxarmayan qurumların maliyyələşdirilməsinin dayandırılması barədə Maliyyə Nazirliyi qarşısında məsələ qaldıracağımızı da burada bəyan edirəm».

Deputat Qüdrət Həsənquliyev isə mətbuatda büdcə mənimsəmələriylə bağlı gedən məlumatların araşdırılmasından danışıb. Onun fikrincə, Hesablama Palatası bu yöndə də məlumatlara aydınlıq gətirməlidir. Hesablama Palatasının Prokurorluğa göndərdiyi məlumatlar əsasında yaxın günlərdə daha bir neçə nəfər həbs edilməlidir. Bunu qurumun sədri Heydər Əsədov deputatların suallarını cavablandırarkən deyib.

Hesablama Palatasının illik hesabatı Milli Məclisdə səsə qoyulub və qəbul edilib.

***İlqar Rəsul***

# 9 ildir yarım sot şəxsi torpağında tikinti apara bilmir


Arxiv foto

**İmişlidən Vaqif Murtuzayev AzadlıqRadiosunun «Qaynar xətt»inə şikayət edib ki, 9 ildir yarım sot şəxsi torpağında tikinti apara bilmir. Deyir, torpağa və tikintiyə görə sənədləri qaydasında olsa da, İmişli Rayon İcra Hakimiyyətinin işçiləri hər dəfə yarıya çatdırdığı tikilini sökürlər.**

**«MƏN TİKİRƏM, İCRA HAKİMİYYƏTİNİN İŞÇİLƏRİ SÖKÜR»**

Vaqif Murtuzayev: «O yer mənə ticarət obyekti tikmək üçün satılıb. Mən də orda mağaza tikmək istəyirəm. Torpaq sahəsini birdəfəlik pul ödəyib rayon torpaq şöbəsinin, rayon bələdiyyəsinin qanuni sənədləri ilə almışam, ilbəil vergisini ödəyirəm. 2003-cü ildən tikinti apara bilmirəm. Mən tikirəm, icra hakimiyyətinin işçiləri gəlib sökür. Səbəbini də belə izah edirlər ki, guya mənim tikmək istədiyim mağaza orada yaşayan qonşunun evinə gedən yolu kəsir».

V.Murtuzayev görəndə ki, aldığı torpaqda heç cür tikinti apara bilməyəcək, İmişli Rayon İcra Hakimiyyətini məhkəməyə verib. İcra hakimiyyətinin nümayəndəsi Xudaverdi Aslanov yalnız hazırlıq iclasında iştirak edib və iddianın təmin olunmamasını xahiş edib. Xahişini belə əsaslandırıb ki, V.Murtuzayevin tikmək istədiyi mağaza həmin ərazidə yaşayan Əli Aslanovun evinin qarşısı olduğuna görə orada tikinti aparmaq olmaz. Məhkəmə baxışında isə nümayəndə məhkəməyə gəlməyib, məktub göndərib ki, V.Murtuzayevin iddiası əsasında qurulan bu məhkəmədə iştirak edə bilmir. Bir daha iddianın təmin olunmamasını xahiş edib. Məhkəmə isə işi araşdırarkən sahibkarın iddiasını əsaslı sayıb. Qətnamə çıxarıb ki, tikinti ərazidə yaşayanlara maneçilik törətmir və məhkəmə tikintiyə icazə verilməsini öhdəlik kimi İmişli Rayon İcra Hakimiyyətinin üzərinə qoyub.

**MƏHKƏMƏ QAPILARINDA QALAN SAHİBKAR**

İmişli Rayon İcra Hakimiyyətindən məhkəmə qətnaməsinin niyə icra olunmaması ilə maraqlandıq. Ancaq sualımıza bir cümlə ilə cavab aldıq ki, məhkəmə çəkişmələri hələ bitməyib və İmişli Rayon İcra Hakimiyyəti Şirvan İnzibati İqtisad Məhkəməsinin qətnaməsindən Şirvan Apelyasiya Məhkəməsinə şikayət verib.

Ancaq V.Murtuzayevin məhkəmə çəkişmələri təkcə icra hakimiyyəti ilə deyil. Tikintinin həyətinə girişi məhdudlaşdırdığını iddia edən Əli Aslanov da V.Murtuzayevi məhkəməyə verib. Bir sözlə, V.Murtuzayev udduğu iki məhkəmə işinə görə iki apelyasiya şikayəti ilə üz-üzə qalıb.

***Esmira Cavadova***

# Kim deyir ki, kağız kitabların «kitabı bağlandı»?

**«Elektron kitabxana» ənənəvi kitabxananı sıradan çıxaracaqmı? AzadlıqFM-in aprelin 6-da efirə gedən buraxılışı bu mövzuya həsr olunmuşdu.**

Müzakirələrdə iştirak etdilər: «Kitab klubu»nun rəhbəri Elxan Rzayev (studiyada), yazıçılar Yaşar və Murad Köhnəqala, kulturoloq Aydınxan Əbilov, «Azərbaycan» jurnalının baş redaktoru İntiqam Qasımzadə.

Müzakirələr zamanı iştirakçıların fikirləri belə oldu:

Elxan Rzayev:

– Azərbaycanda, sözün klassik mənasında, elektron kitabxana yaranmayıb. Sadəcə, bəzi internet səhifələr var ki, hansısa kitabların elektron variantını əldə edib qoyublar sayta, elektron kitabxana adlandırıblar. Kitab oxumaq bir başqa işdir. Mən inanıram ki, kağız kitabın yerini elektron kitablar verməyəcək. Ola bilsin, tənasüb dəyişsin, bu gün 6 faiz elektron kitab satılırsa dünyada, uzağı 35 faiz olacaq. Çünki kağız kitab mədəniyyətdir.

Murad Köhnəqala:

– Hansı estetika ilə böyümüşük, ona da üstünlük verərdik. Əlbəttə ki, istəyərdim ki, ənənəvi kitablar olsun. Kitab oxuyanda, əlini səhifəyə vurasan, xoşun gələn fikrin altından xətt çəkəsən, sual doğuran cümlənin qarşısında sual işarəsi qoyasan. Amma internet əsridir, nə etmək olar? Bunun qarşısını almaq çətin olacaq.

Aydınxan Əbilov:

- Biz virtual kitabxana yaratdıq, indiyə kimi 1 milyon 400 min internet istifadəçisi daxil olub. Dünyanın gedişatının qarşısını almaq olmur. Əvvəllər əlyazmalar olurdu, sonra da kitablar yarandı. İndi zaman başqadır. Elektron kitablar maddi baxımdan asan başa gəlir, həm də bütün dünya üçün açıq olur. Bizim millət mühafizəkar olduğu üçün hər bir yeniliyə qarşı böyük mübarizə aparırıq.

İntiqam Qasımzadə:

- Oxu mədəniyyəti hansı vasitə ilə olacaq, bu, önəmli deyil. Mütaliə etməyə maraq azalıb. Jurnalın saytında texniki problemlər olur, amma elektron variant olacaq. Bu, əlbəttə, satışa ciddi təsir göstərəcək, amma gərək elektron variant da nizamlansın. Kağız məhsuldan gəlir götürüldüyü kimi, elektron məhsuldan da gəlir götürülməlidir.




**Müzakirələrin gedişini AzadliqRadiosu.az-da izləmək olar.**

***Səadət Akifqızı***

# Əkrəm Əylisli: "Qorxuram yeni kitabıma görə məni yandırsınlar"

## Yazıçı nəşrə hazırladığı kitabını Cordano Brunonun çıxışı ilə müqayisə etdi



Əkrəm Əylisli

**Yazıçı Əkrəm Əylisli AzadlıqRadiosunun "Pen klub" verilişinin qonağı olub. Onunla söhbəti AzadliqRadiosu.az saytında dinləmək olar...**

**"AC TOYUQ YATAR, YUXUDA DARI GÖRƏR"**

*Azərbaycanlı yazarlar niyə nüfuzlu beynəlxalq mükafatlar ala bilmirlər? Niyə "Nobel" mükafatı Azərbaycana gətirilmir? Bütün bunlardan sonra bu haqda danışaq, danışmayaq?*

- Əylisdə bir məsəl var, yəqin buralarda da işlənir: "Ac toyuq yatar, yuxusunda darı görər". İndi bu da ona bənzəyir. Azərbaycanda hər gün bir roman yazılır. Romanın nə olduğunu bilməyən adamlar hər gün əsər yazırlar. Yəni belə şəraitdə "Nobel"ə gedən hər hansı yol varmı? Yoxdur!

*- Amma artıq Kamal Abdulla "Nobel" mükafatına namizədlər siyahısındadır.*

- Mən o prosesin necə olduğunu bilmirəm. Həqiqətən. Mən, əlbəttə, arzu edərdim ki, "Nobel" mükafatını Azərbaycan ədəbiyyatı alsın. Kimin almağından asılı olmayaraq ədəbiyyat alsın. Ədəbiyyat beynəlmiləl sənətdir. Ədəbiyyat milli vəzifəsini nə qədər yaxşı yerinə yetirirsə, bir o qədər beynəlmiləl olur.

**ƏKRƏM ƏYLİSLİ QADIN YAZARLARI TƏRİFLƏDİ**

*- Əkrəm bəy, indikiləri oxuyursuzmu?*

- Mən indi ən çox - oxumadığım kitabları oxuyuram. Böyük klassikləri. Məsələn, elə böyük yazıçılar var ki, onların varlığından, təəssüf ki, xəbərsiz olmuşam. Məsələn, Henry Greene-i mən ötən yay oxudum, birinci dəfə onda tanıdım. Nə boyda nəhəng imiş o, Markes-filan bunun tələbələri, şagirdləriymiş. Mən o ədəbiyyatı oxuyuram. Bu ədəbiyyatda... Məsələn, mənim üçün maraqlıdır Günel Mövlud, olduqca maraqlıdır Sevinc Pərvanə, olduqca maraqlıdır Nərmin Kamal. Mən bunları məmnuniyyətlə oxuyuram. Jurnalistikada Azərbaycan ədəbiyyatının gələcək potensialı var. Məsələn, Hacı Zamin nasir olmaq gücündə adamdır. Samir Sarı var, o gün "Nuşirəvan əhvalatı"nı oxuyub ölmüşəm gülməkdən. Şərif Ağayar maraqlıdır, dil materialı kifayət qədər məni qane edir. Yazı dil materialından yaranır. Dilin stixiyasına girməyən adam heç nə çıxara bilməz.

*- Heç gənc olanda istəməmisiz ki, sizi də tanısınlar, oxusunlar, hamı desin ki, o gələn Əkrəm Əylislidir...*

**"ƏSƏRİ ADİCƏ AZƏRBAYCAN MÜƏLLİMİNİ QANE ETMƏYƏNLƏR "NOBEL" İSTƏYİRLƏR, ZÜLM BUNDADIR"**

- Olub. Amma özündən demək kimi çıxmasın, mən dünyada gur-gur guruldayanda, hər il Avropanın bir ölkəsində bir kitabım çap olunanda özümdən bir az da şübhələnirdim, düşünürdüm ki, bir az da irəli getməliyəm. "Mənim kitabım Çexoslovakiyada çıxıbsa, niyə Fransada çıxmasın?" deyirdim. Mən bu həvəslə yaşayırdım. İndi əsəri adicə Azərbaycan müəllimini qane etməyən adamlar "Nobel" istəyir. Zülm bundadır.

**"QORXURAM BU KİTAB SONUNCU OLAR"**

*- Əkrəm bəy, siz özünüz nə yazırsız? Hamının yazdıqlarına qiymət verdik. İndi gələk sizin yaradıcılığınıza...*

- Elə gün olmaz ki, yazmasam da, bir yazı haqda düşünməyim. Özünü çox reklam etmirsənsə, özünü ora-bura dürtmürsənsə elə bilirlər ki, bu adam qurtarıb, daha yazmır.

Yeni kitabım var, yeni yazılarım var. Orda Azərbaycan oxucusunun heç vaxt mənim əsərimdə görmədiyi yeni bir yazıçı var. Mən o əsəri yaxın gələcəkdə yəqin ki, çap etdirəcəm.

*- Yəni bir ilə, beş ilə?*

- Ha deyirəm tez eləyim. Amma hər dəfə oxuyanda bir şey tapıram. Bəlkə də məndə bir qorxu var ki, bu kitab sonuncu olar.

*- Ona görə də yubadırsız?*

- Ola bilsin istəyirəm məndən elə bir kitab qalsın ki, bir sözünə də irad tutulmasın. İstəyirəm ömrümün son əsərini ömrümə layiq şəkildə bitirim.

**"QORXURAM BRUNODAN PIS GÜNƏ QOYSUNLAR"**

*- Əkrəm bəy, siz ədəbiyyatı siyasətə qarışdırmamısız. İndiki romanda necə?..*

- Onda sirrimi açım. Bu, çox ictimai, müasir, çox aktual və bir az da bəlkə artıq dərəcədə cəsarətli yazıdır. Ona görə də gözləyirəm. Məndə belə təəssürat var ki, o, zamanı çox qabaqlayır. Zamanı qabaqlayanda fəlakətlər başlayır. Cordano Bruno dedi ki, Yer kürəsi fırlanır. Amma bir kəsi inandıra bilmədi. Mən də belə hissiyyatı yaşayıram, qorxuram ki, ordakı həqiqətlərə heç kəsi inandıra bilməyim. Və zamanı qabaqladığım üçün məni Cordano Brunodan pis günə qoysunlar.

***Şahnaz Bəylərqızı, Cavid Zeynallı***

# Şeir onluğu açıqlandı!



AzadlıqRadiosunun mədəniyyət portalı olan oxuzalı.az-da keçirilən "Ədəbi Azadlıq-2012" Milli Müsabiqəsinin şeir nominasiyası üzrə onluğu açıqlandı. Münsiflərin 2-ci turda 20-likdəki yazarlara verdikləri ballar onların ilk turdakı balları ilə toplanıb.

**Nəticələr belədir:**

***Rüqəyyə Kəbiri, Elmar Şahmar, Şəhriyar del Gerani, Dilqəm Əhməd, Elxan Məmmədov, Aqşin Evrən, Hafiz Hacıxəlil, İntiqam Hacılı, Balayar Sadiq.***

# Azərbaycanda ziyanlı duz və təhlükəli qənd


Eyyub Hüseynov

**Azərbaycanda yodsuz duzun istehsalı və istifadəsi ilə bir neçə ildir ki, mübarizə aparılmasına baxmayaraq, belə hallar hələ də davam edir. Bunu Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov keçirdiyi mətbuat konfransında bildirib.**

Onun sözlərinə görə, görülən tədbirlər nəticəsində yodsuz duzların istifadəsi azalıb və 3 il bundan əvvəlki 75%-dən 15%-ə düşüb, amma pozuntular hələ də qalır: «Bu gün də Qaradağ duz gölündən və onun yaxınlığında yerləşən Buta duz gölündən hər gün təqribən 10 ton duz toplanıb respublikanın müxtəlif yerlərinə daşınır və təmizlənmədən əsasən çörəkbişirmə, konservləşdirmə, süd məhsullarının istehsalı sənayesində istifadə olunur».

Yodsuz duzların insanlarda bir sıra xəstəliklərə səbəb olduğunu deyən AİB rəhbəri bildirib ki, təşkilat Buta gölündə apardığı monitorinqin nəticələri ilə bağlı çoxsaylı dövlət qurumlarına - Daxili İşlər, Milli Təhlükəsizlik, İqtisadi İnkişaf, Səhiyyə nazirliklərinə, Standartlaşdırma, Metrologiya və Patentləşdirmə üzrə Dövlət Komitəsinə, eləcə də Baş Prokurorluğa rəsmi müraciət etsə də, belə halların qarşısı alınmayıb.

Hazırda ölkənin ticarət məntəqələrində satılan yodsuz duzların markalarını açıqlayan E.Hüseynov bu duzların satışının qadağan edilməsi barədə müraciətlərinin də cavabsız qaldığını bildirib: "Belə duzların bəziləri həddən artıq baha qiymətə – kiloqramı 30 manata satılır".

Təşkilat sədri yodsuz duzların əsasən süd məhsulları istehsal edən zavodlarda istifadə olunduğunu bildirib: «Bunu onunla əsaslandırırlar ki, guya yodlu duz südü korlayır. Bu fikir həqiqətəuyğun deyil». E.Hüseynov AİB-in bununla bağlı araşdırma apardığını və yaxın vaxtlarda belə süd zavodlarının adlarını ictimaiyyətə açıqlayacaqlarını bildirib.

Naxçıvandan gətirilən duzlarda da problemlərin olduğunu bildirən E.Hüseynovun sözlərinə görə, bəzən bu duzların tərkibinə daş duzlar qatılaraq minerallar kimi qələmə verilir, amma bu da keyfiyyətsiz əlavələrdir: "Hələlik ölkədə yeganə keyfiyyətli duz istehsalçısı Masazırda fəaliyyətə başlamış «Azərduz» müəssisəsidir".

Təşkilat rəhbəri qənd istehsalında da ciddi pozuntuların olduğunu, qəndin tərkibinə orqanizm üçün ciddi təhlükə törədən maddələrin qatıldığını bildirib: "Bizdə olan məlumatlara görə, qənd sexlərində qəndi ağartmaq üçün insan həyatına təhlükəli olan "Sodium Hydrogen sulphide" adlı maddədən geniş istifadə olunur".

Malların etiketində bu barədə məlumatların göstərilmədiyini bildirən E.Hüseynovun sözlərinə görə, hələlik AİB bu maddəni ekspertiza etmək üçün əldə edə bilməyib: "Çünki istehsalçılar onu çox gizli saxlayırlar. Bu maddə insanlarda görmənin zəifləməsinə, tənəffüs yolu xəstəliklərinin və xərçəngin yaranmasına səbəb olur".

# Bank əmanətlərini qaytaracaq komissiya hansı qaydada işləyəcək?

**Sovet dövründən qalmış bank əmanətlərinin qaytarılması ilə bağlı Azərbaycan Maliyyə Nazirliyinin nəzdində yaradılmış Xüsusi Komissiyanın fəaliyyət qaydaları açıqlanıb («APA-ECONOMICS»). Komissiya daxil olmuş müraciətləri ən geci 10 iş günü ərzində araşdırır. Xüsusi araşdırma tələb olunan suallar yarandıqda Komissiya müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb edir, müvafiq dövlət orqanlarına sorğu verir və təqdim olunmuş sənədləri rəy (ekspertiza rəyi) verilməsi üçün aidiyyəti dövlət orqanlarına göndərir.**

Müstəqil ekspertləri və mütəxəssisləri cəlb etmək, aidiyyəti dövlət orqanlarından rəy (ekspertiza rəyi) almaq, əlavə sənədlər tələb etmək, yaxud başqa tədbirlər görmək lazım gəldiyi hallarda, araşdırmanın müddəti daha 10 gün uzadılır.

Həmçinin Komissiyanın qəbul etdiyi qərarlar barədə əmanətçiyə və Banka 3 iş günündən gec olmayaraq yazılı məlumat verilir. Xüsusi Komissiyanın birdəfəlik ödəmənin verilməsinə dair qəbul etdiyi qərarlar Bank üçün məcburidir. Əmanətçi Komissiyanın qərarından qanunvericiliklə müəyyən edilmiş qaydada aidiyyəti üzrə məhkəməyə müraciət edə bilər.

Qaydanın ümumi nəzarət bölməsinə gəldikdə isə burada qeyd olunub ki, Komissiya birdəfəlik ödəmələrin verilməsi işinə ümumi nəzarətin həyata keçirilməsi üçün bu işin təşkili vəziyyəti ilə yerində tanış olmaq, banka və ya



onun filiallarına gedərək müşahidələr aparmaq, əmanətçilərin rəyinin öyrənilməsi üçün sorğular keçirmək və bu işlərlə bağlı müvafiq tapşırıqlar vermək hüququna malikdir.

Bank isə hər növbəti ayın 5-dən gec olmayaraq, birdəfəlik ödəmənin verilməsi vəziyyəti barədə məlumatı Xüsusi Komissiyaya təqdim edir. Bu məlumatda əmanətçilərin adları və ödənilmiş məbləğlər filiallar üzrə xronoloji ardıcıllıqla verilir. Xüsusi Komissiya isə bu məlumatları ümumiləşdirərək hər növbəti ayın 10-dək Maliyyə Nazirliyinə təqdim edir.

# «Eurovision 2012»nin 42 mahnısından hansı daha çox izlənir?


«Buranovskie babuşki» qrupu

*«Eurovision» mahnı müsabiqəsi 2012-də ifa olunacaq 42 mahnının video klipinin YouTube kanalında bu günədək izlənmə reytinqi açıqlanıb. Eurovision.az saytı xəbər verir ki, bu sıralamada birinci yerdə Rusiyanın müsabiqə təmsilçisi «Buranovskie babuşki» qrupu gəlir. Rusiya nümayəndələrinin «Party for everybody» mahnısının video versiyasını 1.020.505 şəxs izləyib.*

İkinci yerdə Kipr təmsilçisi İvi Adamou (397.999), üçüncü yerdə isə Böyük Britaniya təmsilçisi Engelbert Hamperdink (381.848) qərar tutub. Azərbaycan bu sıralamada hələ ki, altıncı yerdədir. Səbinə Babayevanın müsabiqədə ifa edəcəyi «When The Music Dies» mahnısının video versiyası bu günə kimi 217.763 dəfə izlənilib.

Sıranın 4-cüsü Türkiyə, 5-cisi Almaniya, 7-cisi Avstriya, 8-cisi Xorvatiya, 9-cusu Albaniya, 10-cusu isə Yunanıstandır. 57-ci "Eurovision" mahnı müsabiqəsinin favorit təmsilçiləri arasında olan Serbiya təmsilçisi Zeljko Yoksimoviçin müsabiqə mahnısının video versiyası 98.170, İsveç təmsilçisi Lorinin 70.133, Fransa təmsilçisi Anqunun 65.062 dəfə baxılıb. Bugünkü göstəriciyə görə, bu sıralamada sonuncu yerdə İsveçrə təmsilçisi «Sinplus» qrupu dayanıb. Qrupun müsabiqə mahnısının klipinə 34.602 dəfə baxılıb.

Eurovision.az saytı bir neçə gün bundan əvvəl başladığı sorğunun da ilkin nəticələrini açıqlayıb. Sorğuda ilk onluqda sıralanma belədir: Ukrayna, İsveç, Azərbaycan, Fransa, Rusiya, Almaniya, Belarus, Norveç, İslandiya, Türkiyə.

*Eurovision.az saytında səsvermə davam edir.*

***Sevda İsmayıllı***

# Arağın üstündə "Allah" sözü


"Allah" sözünə istinad edən araq şüşəsi, Qazaxıstan

*Qazaxıstanda araq istehsal edən şirkət əhalidən üzr istəyib. GEOM şirkəti buraxdığı araq şüşəsinin üzərində ərəb dilində "Allah" sözünün səhvən getdiyini bildirib. Qazaxıstanın Ali Müftisi Absattar Derbisaliev Almatının mərkəzi məscidində araq istehsalçısının göndərdiyi məktubun mətnini səsləndirib. Məktubda bildirilir ki, şüşənin üstündə yazılan "Allahın qüdrəti hər kəsə yetər" cümləsi ərəb dilində olduğundan, araq etiketinin rusiyalı dizaynerləri onun mənasını anlamayıblar.*

AzadlıqRadiosu xəbər verir ki, istehsalçı üzərində "Allah" sözü olan şüşələrin hamısını satışdan çıxaracağını vəd edib. Əhalisinin əksəriyyəti müsəlman olan Qazaxıstanda dini liderlər "Allah" sözünün araq şüşəsi üstündə yazılmasına kəskin reaksiya vermiş, istehsalçıdan izahat tələb etmişdilər.

# AzadlıqRadiosunda verilişlər:

| | |
|---|---|
| 8:00 | AzadlıqFM / Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Korrupsiyametr/ Qaynar Xətt |
| 9:00 | İz / Korrupsiyametr / İşdən sonra |
| 10:05 | Qərb musiqisi |
| 12:05 | AzadlıqFM / Qaynar Xətt / Pen Club / İz / Korrupsiyametr |
| 13:05 | Qərb musiqisi |
| 14:05 | 14-24 / Qaynar Xətt / Azadlıq Bölgələrdə / Pen club / AzadlıqFM / İz / Korrupsiyametr |
| 15:00 | Xəbərlər (şənbə, bazar) |
| 15:05 | Qərb musiqisi. AzadlıqFM / Korrupsiyametr (şənbə-bazar) |
| 15:30 | Amerikanın Səsi / İz |
| 16:00 | Xəbərlər (şənbə, bazar) |
| 16:05 | Qərb musiqisi / İşdən sonra (şənbə, bazar) |
| 17:00 | Xəbərlər |
| 17:05 | İşdən sonra / Korrupsiyametr (hər cümə axşamı) |
| 18:00 | Xəbərlər |
| 18:05 | İşdən sonra / Kontekst / Online-vəkil (şənbə) |
| 19:00 | Qərb musiqisi |
| 20:00 | Xəbərlər |
| 20:05 | Kontekst / Qaynar Xətt / Pen club |
| 20:30 | 14-24 / Qaynar Xətt / İslam və demokratiya / Pen club / İz / Korrupsiyametr |
| 21:00 | Qərb musiqisi |
| 22:00 | Xəbərlər |
| 22:05 | Kontekst / 14-24 / Qafqaz Qovşağı |
| 23:00 | Xəbərlər |
| 23:05 | İşdən sonra / İz / Azadlıq bölgələrdə / 14-24 |
| 00:00 - 8:00 | Amerikanın Səsi / Qərb musiqisi |

**Qeyd:** Kəsr xətti ilə verilmiş – eyni saatlara düşən verilişlər həftənin günlərindən asılı olaraq növbə ilə təkrar gedir...

# Simsiz teleqraf

## Bakıda avtomobil və sərnişinlər üçün dayanacaq


***08.04.2012. Yolladı: Anonim.***

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## Multimedia

## Son videolar:

VİDEO VƏ FOTOLAR



| | | | | |
|---|---|---|---|---|
| Azərbaycanda (VIDEO) | Fotoqalereya | Dünyada (VİDEO) | Azərbaycanda (VIDEO) | Azərbaycanda (VIDEO) |
| Gəncədə atışma yerindən görüntülər | Sarayevo - onda və indi | Qırğızıstanda inqilab belə başlamışdı | Gəncədə silahlı insident baş verib | ABŞ-Azərbaycan əlaqələrinin 20 illiyi |




| | | | | |
|---|---|---|---|---|
| Azərbaycanda (VIDEO) | Dünyada (VİDEO) | Multimedia | Azərbaycanda (VIDEO) | Pen Club videoları |
| Nağıllar aləminə səyahət | Çexiya və Azərbaycan prezidentlərinin görüşü | Ancaq qadınlar üçün... sürücülük kursu | Balayar Sadiq "Həsrətin rəngləri" (Şeir) | Əkrəm Əylisli: "Qorxuram məni pis günə qoysunlar" |



| | | | | |
|---|---|---|---|---|
| Dünyada (VİDEO) | Fotoqalereya | Dünyada (VİDEO) | Azərbaycanda (VIDEO) | Azərbaycanda (VIDEO) |
| Əfqanıstanda törədilmiş partlayışda 10 adam ölüb | Uzaq və naməlum Monqolustan | Moskva bazarında azı 17 nəfərin həlak olduğu yanğın | Elmar Şahmar "Bağışla" (Şeir) | Sulutəpədə yenidən evlərin sökülməsinə başlanılıb |

**Qaynar Xətt:** 436-77-41

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az


Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Çap Evi" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tbilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz